# Azərbaycanda gəlmə turizmi 3.2 milyon rekordu vurur!

Dövlət Sərhəd Xidmətindən verilən məlumata görə, 2019-cu ildə Azərbaycanı ziyarət etmiş xarici vətəndaşların sayı 2018-ci illə müqayisədə 323 min və ya 11.4% artaraq tarixi rekorda - 3.2 milyon nəfərə çatıb. Bu inkişafa sentyabr (+20.8%), oktyabr (+24.7%), noyabr (+13.3%) və dekabr (+14.2% aşağıya baxın) aylarında müşahidə edilmiş yüksək artımlar səbəb olub. Gürcüstandan gələn qonaqların 18.9% və ya 115 min artaraq 725 minə qədər artması, Orta və Cənubi Asiyadan gələn səyahətçilərin əhəmiyyətli dərəcədə, müvafiq olaraq 46.4% və 38.1% artması və 2018-ci ildəki 34.5%-lik əhəmiyyətli artımdan sonra Yaxın Şərq regionundan gələnlərin sayında 2019-cu ildə durğunluq bu inkişafın xarakter xüsusiyyətləri olub. Son olaraq qeyd etmək yerinə düşər ki, 2018-ci ilin yay mövsümündən başlamış və 2019-cu ilin mart ayı da daxil olmaqla, uzun sürmüş durğunluq dəyişərək yekunda 6.3% artımla 256 min nəfər təşkil edib. Mərkəzi Asiyanın ən diqqətəlayiq bazarı 52 min nəfər və ya 85.8%-lik artımla Türkmənistan, Cənubi Asiyanın isə 65 min nəfər və ya 66.8%-lik artımla Hindistandır. Yaxın Şərq bölgəsindən BƏƏ, İraq, Oman və Qətərdən gələnlər arasında azalma müşahidə olunur.Bu azalmalar Səudiyyə Ərəbistanı və İsraildən gələn səyahətçilərin müvafiq olaraq 46.7% və 17.3% artması ilə geniş tarazlaşdırılıb.

Digər vacib bazarlardan gələnlərin sayındakı artım orta artım səviyyəsindən bir qədər aşağı olub. Belə ki,Rusiyadan 932.2 min səyahətçi gəlib ki, bu da 54 min və ya 6.1%-lik əhəmiyyətli artım deməkdir. Türkiyə və İrandan gələnlərin sayı 8.6% və 6.3% artaraq müvafiq olaraq 316 min və 256 min təşkil edib.

Mərkəzi Asiyada inkişaf etməkdə olan bazarların bəzi təfərrüatları aşağıdakı kimidir: ən yüksək artımlar Türkmənistan (52 min; əhəmiyyətli böyümə 85.8%), Qazaxıstan (47 min; böyümə 26.1%) və Özbəkistan (23 min; artım 28.3%) və Hindistana (65 min; əhəmiyyətli böyümə 66.8%), Cənubi Asiyadan Pakistana (47 min; artım 12.9%) aiddir.

**Qrafik 1: 2019 və 2018-ci illər ərzində 7 ölkə və regiondan gəlmiş xarici səyahətçilər (min)**



2019-cu ilin dekabr ayında Azərbaycan sərhədlərini 247 min əcnəbi vətəndaş keçib ki, bu da 2018-ci ilin dekabr ayı ilə müqayisədə 14.2% və ya 30 min artım deməkdir. Qonaqların çoxu 8.1% və 6.8% artımla Rusiyadan (66 min) və Gürcüstandan (64 min) gəlib. Hərçənd,  ən diqqət çəkən artım keçən ilə nisbətən 50% və ya 7 min nəfər çox xarici vətəndaşla İrandan gələnlər arasında müşahidə olunur. Qeyd etmək lazımdır ki, dekabr ayında əvvəlki aylardan fərqli olaraq, demək olar ki, bütün Yaxın Şərq ölkələrindən gələnlərin sayında artım müşahidə olunur; istisna 10.4% azalma ilə BƏƏ-dir. Türkiyədən gələnlərin sayı 12.3% və ya 3 min artaraq 272 minə çatıb.

**Qrafik 2: 2019 və 2018-ci ilin dekabr ayında 7 ölkədən və regiondan gəlmiş xarici səyahətçilər (min)**




2019-cu ildə, ümumilikdə, nümayəndəliklərin qurulduğu ölkələrdən (Çin, Hindistan, Rusiya, Almaniya, Səudiyyə Ərəbistanı, BƏƏ) 1.2 milyon səyahətçi gəlib ki,bu da 2018-ci illə müqayisədə 9.1% artım deməkdir. Yüksək artımların müşahidə olunduğu ölkələrRusiya, Səudiyyə Ərəbistanı və Hindistandır. BƏƏ nəzərə alınmadan artım 12.4% təşkil edir və bu, bütün digər ölkələrin səyahətçiləri üçün 10.8% artımdan bir qədər çoxdur.

**Metodoloji qeyd:** Xarici səyahətçilərin sayı Dövlət Sərhəd Xidməti tərəfindən verilən məlumata əsasən, Azərbaycanın dövlət sərhədini keçmiş xarici vətəndaşların sayına müvafiq olaraq hesablanıb. Bu rəqəmlər turizm məqsədilə səfər edən şəxslərlə yanaşı, BMT-nin Ümumdünya Turizm Təşkilatının 2008-ci ilin Turizm Statistikası üçün Beynəlxalq Tövsiyələrinə uyğun olaraq, bu kateqoriyaya aid edilməyən digər səyahətçiləri, misal üçün, sərhəd işçiləri, uzunmüddətli işçilər və tələbələr, pasiyentləri və s. əhatə edir. Nəticə etibarilə, gəlmə turizm axını bu hesabatda qeyd edilmiş səyahətçilərin sayından bir qədər azdır.

Cədvəl 1: 2019-cu ilin dekabr ayında və 2019-cu ilin yanvar-dekabr aylarında müxtəlif ölkə və regionlardan gələn xarici vətəndaşların sayı, habelə 2018-ci ilin müvafiq dövrləri üçün analoji rəqəmlər.

| Region | 2019 | | 2018 | |
|---|---|---|---|---|
| | Dekabr | Yanvar-Dekabr | Dekabr | Yanvar-Dekabr |
| Rusiya | 65 642 | 932 198 | 60 702 | 878 391 |
| Gürcüstan | 63 744 | 725 174 | 59 702 | 610 124 |
| Yaxın Şərq | 28 936 | 361 055 | 25 464 | 370 998 |
| Türkiyə | 27 259 | 316 404 | 24 281 | 291 259 |
| İran | 20 378 | 255 571 | 13 586 | 240 483 |
| Cənubi Asiya | 11 572 | 118 808 | 8 352 | 86 052 |
| Mərkəzi Asiya | 10 113 | 130 968 | 7 108 | 89 474 |
| Şərqi Avropa | 7 036 | 109 005 | 6 183 | 99 144 |
| Qərbi Avropa | 5 672 | 115 220 | 5 261 | 96 299 |
| Şimal-şərqi Asiya | 1 642 | 41 320 | 1 240 | 29 332 |
| Amerika | 1 629 | 28 918 | 1 519 | 26 500 |
| Cənub-şərqi Asiya | 1 393 | 12 854 | 989 | 9 520 |
| Afrika | 959 | 10 148 | 969 | 8 629 |
| Digər | 618 | 10 261 | 616 | 8 672 |
| **TOPLAM** | **246 593** | **3 167 904** | **215 972** | **2 844 877** |